Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyətinin 20 dekabr 2017-ci il tarixli
14/34 №-li qərarı ilə təsdiq edilmiş əlavə

**2018-2020-ci illər üçün elmi tədqiqat proqramlarının işlənməsi, seçilməsi və maliyyələşdirilməsi üzrə respublika müsabiqəsi haqqında**

**ƏSASNAMƏ**

1. 2018-2020-ci illər üçün elmi tədqiqat proqramlarının işlənməsi, seçilməsi və maliyyələşdirilməsi üzrə respublika müsabiqəsi (bundan sonra – Müsabiqə) Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən aktual elmi və texnoloji problemlərin həllinə yönəlmiş elmi tədqiqat proqramlarının müsabiqə yolu ilə seçilməsi və maliyyələşdirilməsi məqsədilə keçirilir.

2. Müsabiqəyə təqdim olunan elmi tədqiqat proqramları fundamental və tətbiqi elmi tədqiqat işlərinin prioritet istiqamətlərinə uyğun olaraq dünyada elmin, texnologiyaların inkişaf meylləri nəzərə alınmaqla, multidissiplinar araşdırmalara üstünlük verilməklə kompleks xarakterli olmalı, respublikanın elmi-texniki tərəqqisinə, yeni elm sahələrinin inkişafına, habelə ölkənin sosial-iqtisadi və mədəni problemlərinin həllinə, onun müdafiə qüdrətinin gücləndirilməsinə yönəlməlidir.

3. Müsabiqənin keçirilməsi haqqında elan respublika mətbuatında dərc edilir.

4. Müsabiqəyə təqdim edilən elmi tədqiqat proqramının rəhbəri AMEA-nın həqiqi və müxbir üzvləri ola bilər.

5. Elmi tədqiqat proqramlarının icrasında AMEA-da, habelə respublikanın digər elmi müəssisələrində və ali təhsil müəssisələrində çalışan alim və mütəxəssislər iştirak edə bilər.

6. Elmi tədqiqat proqramlarının icra müddətləri 3 ildən çox olmamalıdır.

7. Müsabiqəyə təqdim olunmuş elmi tədqiqat proqramlarının qiymətləndirilməsi məqsədilə AMEA Rəyasət Heyətinin qərarı ilə Ekspert komissiyası yaradılır.

8. Ekspert komissiyası müəyyən edilmiş müddətdə elmi tədqiqat proqramlarının ekspertizasını həyata keçirir və onun nəticələrini AMEA-nın Rəyasət Heyətinə təqdim edir.

9. Müsabiqənin nəticələri barədə yekun qərar AMEA-nın Rəyasət Heyəti tərəfindən qəbul edilir.

10. Müsabiqənin nəticələri barədə AMEA Rəyasət Heyətinin qərarı mətbuatda elan edilir.

11. Müsabiqə nəticəsində seçilmiş elmi tədqiqat proqramlarının maliyyələşdirilməsi dövlət büdcəsindən AMEA-ya ayrılmış vəsait hesabına həyata keçirilir.

12. Bir proqramın smeta dəyəri 1 il üçün 200 000 (iki yüz min) manatdan artıq olmamalıdır.

13. Müsabiqə çərçivəsində maliyyələşdirilən proqramların icrasına nəzarət müvafiq elmi bölmələr tərəfindən həyata keçirilir və hər rübün sonunda AMEA Rəyasət Heyətinə hesabat təqdim edilir.